MUSİQİ DÜNYASI 2/87 2021

# S. ƏLƏSGƏROVUN "VƏTƏNİMDİR" ROMANSININ MELODİK XÜSUSİYYƏTLƏRİNİN TƏDQİQİ

*Ülfət NİFTİYEVA*

*Təqdim olunan məqalədə görkəmli bəstəkar S. Ələsgərovun "Vətənimdir" adlı romansının nəzəri təhlili verilir. Həmin məqalədə romansın musiqi forması, məqam, ritmika və melodik dilinin tədqiqi əsas təhlil obyektinə çevrilmişdir.*

***Açar sözlər:*** *Süleyman Ələsgərov, romans, vətənimdir, təhlil, məqam, ritmika*

Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrindən biri olan Süleyman Ələsgərov Azərbaycan musiqi salnaməsinə daimayaşar musiqi əsərləri bəxş etmişdir. Xalq musiqi xəzinəsi, xalq musiqi nümunələri əsasında yaratdığı istər kiçik, istər iri həcmli əsərləri hamı tərəfindən sevilmiş və geniş dinləyici kütləsinin musiqi estetik zövqünün formalaşmasında böyük xidməti olmuşdur. Onun əsərlərini dinlədikcə musiqinin hər bir rəng və çalarlarını görmək olur. Təbiət öz yaşıllığı, dağlar öz əzəməti, bulaqlar öz saf və təmiz suları ilə onun əsərlərində dinləyici qəlbinə yol taparaq, insanın yaşamaq və bu gözəlliklərdən zövq almaq ruhunu yüksəldir. Bəstəkarın musiqi dili həmişə zamanla səsləşmiş, aktual və xalq tərəfindən qəbul edilən olmuşdur.

Bəstəkar Süleyman Ələsgərov 1924 - cü ildə Dağlıq Qarabağın Şuşa şəhərində anadan olmuşdur. O, ilk təhsilini Şuşa musiqi məktəbində alıb, tezliklə bakıya köçür. S.Ələsgərov Azərbaycan Dövlət Konservatoriyasının hazırlıq şöbəsini bitirdikdən sonra, professor Boris Zeydmanın sinfinə bəstəkarlıq şöbəsinə daxil olur və 1948-ci ildə təhsilini başa vurur. S.Ələsgərov zəngin musiqi irsinə malikdir. Bu musiqi irsi Azərbaycan professional musiqisinin bir çox janrlarını əhatə edir. Bəstəkar 2 operanın («Bahadur və Sona» və «Solğun çiçəklər»), 12 musiqili komediyanın, 2 simfoniyanın («Gənclik» və «Vətən), «Bayatı-Şiraz» simfonik muğamının, violonçel, fortepiano və simfonik orkestr üçün «Ikili konsert»in, simfonik orkestr üçün «Uvertüralar»ın, 2 simfonik poemanın, 6 kantatanın, bir sıra kamera-instrumental əsərlərin, tar ilə Azərbaycan xalq çalğı alətləri orkestri üçün 3 konsertin, xor üçün, xalq çalğı alətləri orkestri üçün bəstələnmiş rəngarəng janrlı əsərlərin, 200-ə qədər mahnının müəllifidir.

Görkəmli bəstəkar S.Ələsgərov yaradıcılığında romans janrına da müraciət etmişdir. O, müxtəlif dövrlərdə görkəmli şairlərin sözlərinə gözəl, ahəngdar romanslar yaratmışdır. 11 romans müəllifi olan bəstəkar hər bir romansında musiqi dili ilə insanın hiss və duyğularını sanki dilə gətirmişdir. Onun "Yada düşdü", "Vətənimdir", "Sərvi Xuramanım mənim", "Küsmərəm", "Bilmirəm" və s. kimi romansları hər zaman məşhur ifaçıların repertuarında səslənir.

Bizim müraciət etdiyimiz məşhur romanslardan biri sözləri M. Fizuliyə aid olan "Vətənimdir" [1]. Romans böyük Azərbaycan şairi M. Fizulinin vəfatının 400 illiyinə ithaf olunmuşdur. "Vətənimdir" romansı dünya şöhrətli müğənni Bülbülun ifasında səslənmişdir. Romansın sözlərinə nəzər salsaq dəyişkən qafiyə prinsipi üzrə quruluşu göstərmək olar. Bu dəyişkən qafiyələri bəstəkar professional şəkildə ümumiləşdirərək romansda bənd və nəqərat quruluşu yaratmışdır [2].

Pənbeyi-dağı-cünun içrə nihandır bədənim, (15 heca)
Diri olduqca libasım, budur, ölsəm, kəfənim. (15 heca)
Canı canan diləmiş, verməmək olmaz, ey del! (14 heca)
Nə niza eyləyəlim? Ol nə sənindir, nə mənim! (15 heca)
Nəqarət
Edəməm tərk Füzuli, səri-kuyin yarın, (13 heca)
Vətənimdir, Vətənimdir, Vətənimdir, Vətənim! (16 heca)

Musiqi təhlilinə nəzər salsaq romans "si bemol" mayeli şüştər üzərində yazılmışdır [3 s.87-92]. 6/8 ölçüdə və moderato con moto tempində yazılan romans giriş, bənd və nəqəratdan ibarətdir. Giriş fortepianinonun müşayəti ilə səslənən ümumilikdə 13 xanədən ibarətdir. Həmin hissəni üç cümləyə bölmək olar. Üç cümlədə verilən melodiyanı biz A+A1+B kimi qeyd edirik. A cümləsində sağ əlin sekvensiya frazaları ilə aşağıya doğru hərəkəti və sol əlin tamamlayıcı ton üzərində orqan punktu səslənir. Birinci cümlənin əsasını bas və soprana səsləri təşkil edir. Cümlə tonika ("do") səsi üzərində yarım kadansla tamamlanır. Girişin ikinci cümləsi (A1) birinci cümlənin variantlı təkrarı formasında verilmişdir. Müşayət zamanı burada soprana, bas, tenor, altın 4 səsli ifası ilə əvəzlənmə baş verir. Birinci cümlədə olduğu kimi ikinci cümlə də yarımkadans tonika üzərində tamamlanır. Girişin üçüncü cümləsi yenidir. Onu (B) kimi qeyd etsək A və A1 cümlələrinə sanki cavabverici rolunu daşıyır. Cümlə tam kadansla üçüncü pillədə (t.t) tamamlanır. Girişin son iki xanəsi bəndə giriş olaraq göstərilir.

Nümunə №1




Bəndi üç cümləli period a+b+c kimi qeyd etmək olar. Cümlələr kvadrat quruluşludur və 4 xanəlidir. Burada melodiya dəyişilmiş sekvensiya formasında verilmişdir. Birinci cümləyə (a) nəzər salsaq melodiya tam tonda ("fa") başlayıb elə tam tonda tam kadansla bitir.

Nümunə №2






İkinci cümlə yeni melodiyaya əsaslanır (b). Bu cümlə "a" cümləsindən fərqli olaraq enən səciyyə deyil, yüksələn melodik inkişafa mənsubdur. Maraqlıdır ki müşayət birinci cümlədə olduğu kimi eyniylə saxlanılır. Cümlə tonika səsi üzərində yarım kadansla bitir. Sonra yenidən periodun təkrarı verilir. Təkrar zamanı müşayətin melodiyası dəyişkən şəkildə ifa olunur.

Nümunə №3




Üçüncü cümləni (c) kimi qeyd edirik. Burada tam fərqli melodiyanın ifası göstərilir. Belə ki, tamamlayıcı tonda başlanan melodiya cümlə daxilində yeddinci pilləyə qədər (do) yəni kuliminasiya nöqtəsinə catdırılır. Cümlə tərkib aralıq məqamına əsaslanır (tərkib şöbəsi) [4, s.94].Onun istinad nöqtəsi yeddinci pillə "re bemol" səsidir. Cümlə verilәndən sonra onun təkrarı səslənir. Təkrar variantlıdır, çünkü burada həm cümlənin sonunda həm də cümlə daxilində müəyyən dəyişikliklər baş vermişdir. Təkrar zamanı cümlə yeddinci pillədə deyil, məhz yarım kadansla tonika səsi üzərində bitir.

Nümunə№4




Hissəllər arasında fortepiano müşayəti ilə dörd xanəli intermediya verilir. Bu intermediya ikinci hissəyə sanki hazırlıq mərhələsini daşıyır. Çünkü burada səslənən musiqi parçası daha sonra hissənin vokal partiyasında da təkrar səslənəcək. İkinci hissənin melodiyası üç fərqli cümlələrlə təqdim olunur. Biz bu cümlələri a+b+c kimi qeyd edə bilərik. Belə ki birinci (a) cümləsi fortepianinonun müşayəti ilə verilən melodiyanın dəyişilmiş təkrarıdır. Maraqlıdır ki həm girişin, həm də birinci cümlənin musiqi materialı birinci hissənin yeni yüksəklikdə təkrarına əsaslanır. Lakin hissələrin musiqi materialı eyni olsa da, müxtəlif dinamik işarələrlə (p, ff) daha yüksək tesseturada melodiyanın verilməsi hissələr arasında fərqliliyi daha qabarıq şəkildə nümayiş etdirir. 4 xanədən ibarət olan cümlə do səsində

başlayıb, yarım kadansla həmin səsdə də tamamlanır. Müşayətdə vokal partiyanın ifası unison şəkildə təqdim olunur. İkinci cümləni b olaraq göstərsək artıq yeni mövzuda formalaşan cümlənin ifasının şahidi oluriq. Birinci cümlədən fərqli olaraq ikinci cümlə tam kadansla tamamlayıcı tonda (fa) bitir. Cümlələrin müşayəti akkord fakturası ilə təqdim olunur. Melodiya (do) yarım kadansla başlayıb, (fa) tam kadansla bitir. Müşayətində çoxsəsli polifoniyanın ifasında, yəni akkordlarla ifa göstərilir. Üçüncü cümlə (c) tam yeni melodiya ilə ifa olunur. Müşayiət də birinci cümlədəki kimi vokal partiyanın təkrarı üzərində ifa olunur.

Nümunə №5



Son olaraq nəqərat girişin melodiyası üzərində səslənir və bir daha sanki mövzunu təsdiq edərək əsərdə qapalılıq yaradır.




## ƏDƏBİYYAT


1. Ələsgərov S.Ə. Vətənimdir. Bakı. İşıq nəşriyyatı. 1982, 8 s.
2. Mahmudova C.E. Azərbaycan bəstəkar mahnılarında poeziya ilə musiqi. B.: Mars Print, 2009, 253 s.
3. Hacıbəyov Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları. Bakı: Yazıçı, 1985, 152 s.
4. Şıxəliyev İ. Azərbaycan musiqisinin lad nəzəriyyəsi. Bakı: Zərdabi- nəşriyyat poliqrafiya, 2015, 172 s.
5. Qafarova M. Bəstəkar Süleyman Ələsgərov və xalq çalğı alətləri orkestri. Bakı: ADPU - nun nəşriyyatı, 2012, 227 s.
6. Xəlilov V.C. Bəstəkar Süleyman Ələsgərov. Bakı: İşıq, 1985, 72 s.


## Исследование мелодических характеристик романса «Родина моя» С. Алескерова

*В предлагаемой статье представлен теоретический анализ романса «Родина моя» выдающегося композитора С. Алескерова. В этой статье основным объектом анализа является форма музыкального языка, ритм и мелодический язык музыки.*

***Ключевые слова:*** *Сулейман Алескеров, романс, родина моя, анализ, магам, ритм*

## Research of melodic characteristics of the romance “My Motheland” by S. Aleskerov

*This article presents a theoretical analysis of the romances “My Motherland” by the outstanding composer S. Aleskerov. In this article, the main object of analysis is the form of the musical language, rhythm and melodic language of music.*

***Keywords:*** *Suleiman Aleskerov, romance, my motherland, analysis, megam, rhythm*